

QƏRBİ AZƏRBAYCAN

# Milli-mənəvi dəyərlərimiz əbədi mirasımızdır



*Bir insan heç vaxt görmədiyi torpaq üçün darıxar? Uşaq vaxtı ayaqlarının tozuna qarışmadığı cığırlar, səhər küləyinin üzünə dəymədiyi bağ-bağatlar, heç vaxt seyr etmədiyin günəşin batması... insan ruhunda necə bu qədər dərin iz sala bilər? Bəzən qəribə bir hiss içimizi oyur - heç vaxt ayaq basmadığımız, amma sanki hər daşını, hər ağacını tanıdığımız yurda olan həsrət kimi. Bu, yaddaşın silinmiş bir hissəsini axtarmaqdır. İnsan ruhu bəzən yaddaşı olmayan xatirələr daşıyır - bəlkə də qanımıza hopmuş, bəlkə də nəsillərin pıçıltısı ilə bizə ötürülmüş xatirələri. O torpağın küləyi üzümüzə dəyməsə də, ruhumuz onun qoxusunu çoxdan duymuş kimi darıxır...*







Azərbaycan xalqı əsrlər boyu geniş coğrafiyada yaşayıb, öz mədəniyyətini, folklorunu, ədəbiyyatını və musiqisini yaradıb. Bu zəngin irsin ayrılmaz hissəsi - Qərbi Azərbaycan torpaqları yüzillərlə Azərbaycan türklərinin vətəni olub. Burada doğulub-böyüyən aşıqlar, şairlər, sənətkarlar öz yaradıcılıqları ilə xalqın mənəvi xəzinəsini zənginləşdiriblər. Lakin tarixin müxtəlif dövrlərində mənfur erməni millətçiləri bu mədəni irsə sahib çıxmağa, onu saxtalaşdıraraq dünyaya özlərininki kimi təqdim etməyə çalışıblar.

Ermənilərin saxtakarlığı xalq mahnılarını və musiqi alətlərini öz adlarına çıxmaqla məhdudlaşmır. Onlar Azərbaycan xalqına məxsus bir çox folklor nümunələrinə erməni motivləri əlavə edib, yeni adlarla yayıblar. Bütün bu saxtakarlıqlara qarşı mübarizə aparmaq və Azərbaycan xalqının mədəni irsini qorumaq üçün son illər ölkəmizdə müxtəlif elmi seminarlar, beynəlxalq konfranslar və tədbirlər təşkil olunur. Tarixçilər, folklorşünaslar, musiqişünaslar və digər mütəxəssislər bu tədbirlərdə erməni saxtakarlığının sübutlarını ortaya qoyur, dünya ictimaiyyətinə tarixi faktlar əsasında həqiqətləri çatdırırlar.

Ötən gün Beynəlxalq Muğam Mərkəzində keçirilən "Milli-mənəvi dəyərlərimiz Qərbi Azərbaycan qaynaqlarında" adlı elmi-praktiki seminar da bu mövzuya həsr edilmişdi. Seminarda çıxış edən **Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli** bildirdi ki, milli-mənəvi dəyərlərimizi öyrənmək hər bir Azərbaycan vətəndaşı üçün vacib məsələdir: "Xüsusilə Qərbi Azərbaycanın Azərbaycan torpağı olması və burada minilliklər boyu zəngin mədəni irsin formalaşması faktı diqqətə çatdırılıb. Lakin uzun illər bu mənəvi irs barədə kifayət qədər məlumatımız olmayıb. Bu gün ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində mühüm tədbirlər baş tutur. Elmi, ictimai və humanitar fikrin inkişafına töhfə vermək məqsədilə təşkil olunan seminar milli-mənəvi dəyərlərimizin Qərbi Azərbaycan qaynaqlarında necə əks olunmasına həsr edilib.

Müstəqillik dövründə biz bu mənəvi hissi daha dərindən dərk etməyə başlamışıq. Şübhəsiz ki, bütün regionlarda olduğu kimi, Qərbi Azərbaycan ərazisində də formalaşan mənəvi dəyərlər Azərbaycan etnomədəni sisteminin ayrılmaz tərkib hissəsidir. Bu sistem ümumi milli xüsusiyyətlərlə yanaşı, həm də regional çalarları özündə birləşdirir.

Təsəvvür edin, Aşıq Ələsgəri, eləcə də digər böyük ustadları tanımadan, onların sənət mirasını öyrənmədən Azərbaycan aşıq sənəti haqqında necə danışmaq olar? Əgər Azərbaycan aşıq sənətindən bəhs ediriksə, Dərələyəz aşıqlarını unutmaq mümkündürmü? Eyni qaydada, Azərbaycan musiqi ənənələrindən danışırıqsa, İrəvanın musiqi məktəbini, Zəngibasarın havalarını nəzərə almadan bu mövzunu tam şəkildə əhatə etmək mümkün deyil. Məhz bu səbəbdən, bu mənəvi dəyərləri hərtərəfli araşdırmalı, bütövlükdə Azərbaycan mədəni irsi haqqında daha dolğun və əsaslı məlumat verməliyik".

**Filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli** Dədə Qorqud dönəmindən günümüzə gəlib çatan Qərbi Azərbaycan aşıq havalarından bəhs etdi: "Hələ orta əsrlərdə Azərbaycan aşıq sənəti formalaşmağa başlamış və zamanla inkişaf edərək bugünkü zəngin irsə çevrilmişdir. Tarix boyu ölkəmizdə müxtəlif aşıq mühitləri mövcud olmuşdur. Onların arasında mühüm yer tutan Qərbi Azərbaycan aşıq mühiti də özünəməxsus xüsusiyyətlərə malikdir. Burada Dərələyəz, Köçəri aşıq mühiti kimi mühüm sənət ocaqları formalaşmışdır. Zaman keçdikcə Köçəri aşıq mühiti güclənmiş və burada Aşıq Alı, Aşıq Ələsgər, Ağ Aşıq kimi ustad sənətkarlar yetişmiş və sənətin inkişafında mühüm rol oynamışdırlar. Onların yaradıcılığı sayəsində Köçəri aşıq mühiti Azərbaycan aşıq sənətinin zirvəsinə yüksəlmişdir. Köçəri aşıq mühitinin mühüm xüsusiyyətlərindən biri də ustad-şagird ənənəsinin sistemli şəkildə formalaşmasıdır. İlk dəfə olaraq "Ustad Şərif" ənənəsi bu mühitdə meydana gəlmişdir. Bu ənənə Aşıq Alı ilə başlamışdır, hansı ki o, Aşıq Ələsgərin ustadı olmuşdur, Aşıq Ələsgər isə öz növbəsində daha çox aşıqların ustadı kimi tanınmışdır. Göyçə aşıq mühiti Qərbi Azərbaycanla yanaşı, Gəncəbasar, Borçalı və Naxçıvan aşıq mühitlərinə də təsir göstərmişdir".

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənli** qədim yallılarımızdan danışdı: "Xalqın ruhu onun musiqisində, rəqslərində, yaratdığı melodiyalarda yaşayır. Azərbaycan xalqı da min illər boyu öz tarixini, sevincini, kədərini, arzularını musiqisi ilə ifadə edib. Lakin düşmənlərimiz bu musiqiləri bizdən oğurlayaraq öz adlarına çıxmağa çalışıblar. Ermənilər tərəfindən mənimsənilən ən dəyərli mədəniyyət nümunələrimizdən biri xalq musiqilərimizdir.

Musiqi tariximizə nəzər salsaq görərik ki, ermənilər təkcə mahnıları deyil, eyni zamanda muğamlarımızı, aşıq havalarımızı, hətta milli musiqi alətlərimizi belə öz adlarına çıxmağa cəhd etmişlər. Köçəri yallısı da bu saxtalaşdırma cəhdlərinin qurbanlarından biridir. Halbuki bu qədim rəqs Azərbaycan türklərinin minilliklər boyu qoruyub saxladığı milli-mədəni dəyərdir. Bu gün musiqi tarixçiləri, sənətşünaslar və araşdırmaçılar ermənilərin saxtakarlıqlarını ifşa edərək Azərbaycan musiqisinin həqiqi köklərini dünyaya sübut etməyə çalışırlar".

**Tarix üzrə fəlsəfə doktoru Tahir Əmiraslanov** "Qərbi Azərbaycan və mətbəximiz" barədə danışaraq Azərbaycan mətbəxinin tarixi və mədəni irsi ilə bağlı uzun illərdir ciddi araşdırmalar aparıldığını bildirdi: "Bu araşdırmalar çərçivəsində tacirlərin kitablarına, etnoqrafik mənbələrə müraciət edilir. Saray mətbəxi ilə bağlı məlumatlar əsasən mətbəx dəftərlərindən əldə olunur, lakin onları da tapmaq çətindir, çünki bir çoxu zamanla Rusiyaya aparılmışdır. Bütün bunlara baxmayaraq, 1913-1926-cı illərdə İrəvanın mərkəzində yerləşən bir dükan Azərbaycanın kulinariya ənənələrini yaşatmışdır. Bu dükanın sahibi Əliqulu Rzayev 100-ə yaxın milli yemək növünü sistemləşdirərək kitab şəklində yazıya almışdır.

Bir çox atalar sözləri məhz yeməklər əsasında formalaşıb. Belə ki, Azərbaycanın zəngin mətbəx irsini qorumaq məqsədilə 937 atalar sözü toplanaraq sistemləşdirilmişdir. Bu ifadələrin çoxu məhz "qazan mədəniyyəti" ilə bağlı xalq arasında yayılan müdrik fikirlərdən ibarətdir. Lakin son illərdə Ermənistan Elm Nazirliyinin portalında 250-yə yaxın Azərbaycan yeməyi erməni mətbəxinin təamları kimi təqdim edilmişdir. Əgər bu mədəni oğurluğun qarşısını almasaq, yaxın 20 il ərzində həqiqətləri əsaslandırmaq və sübut etmək çətin olacaq. Bunun üçün genişmiqyaslı işlər görülmüş, 413 kitab çap olunmuş və Azərbaycan kulinariya irsinin beynəlxalq arenada tanıdılması üçün böyük səylər göstərilmişdir. Fransada Nobel Muzeyində Azərbaycan mətbəxini əks etdirən dörd kitab yerləşdirilmişdir".

Daha sonra "İrəvan ansamblı"nın ifaçıları tərəfindən insanın ruhunu titrədən qədim xalq mahnıları səsləndirildi. Sazın telində min illərin nisgili, sevinci, ağrı-acısı dilləndi. Sanki yaddaşın dərin qatlarında gizlənmiş xatirələr oyandı, unudulmuş duyğular yenidən canlandı. Xalq mahnıları dinləyiciləri uzaq diyarlara, doğma, amma görmədikləri ellərə apardı. Qavalın səsi dağların zirvələrindən, çayların coşqun axarından xəbər verirdi. Bu, musiqi sadəcə bir səda deyildi, bir millətin tarixi, bir xalqın keçmişindən gələcəyə uzanan yolu idi. Alqış səsləri yüksəldikcə, bu melodiyaların hələ neçə əsrlər boyu yaşayacağına inam daha da artırdı.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**